# "MÜQAYİSƏLİ SƏNƏTŞÜNASLIQ" TOPLUSUNUN X BURAXILIŞI HAQQINDA

*Rəna MƏMMƏDOVA*

Azərbaycan Milli Elmlər Akademiyasının Memarlıq və İncəsənət İnstitutunun "İncəsənətin qarşılıqlı əlaqələri" şöbəsi tərəfindən nəşri artıq ənənə halını almış "Müqayisəli sənətşünaslıq" toplusunun növbəti X buraxılışı işıq üzü görmüşdür.

Bu sonuncu nəşr əlamətdar bir hadisəyə həsr edilmişdir. Azərbaycan xalqının Ümummilli lideri, Ulu öndər Heydər Əliyevin 100 illik yubileyi ilə əlaqədar hazırlanan toplunun bu yubiley buraxılışının "İncəsənətin qarşılıqlı əlaqələri" şöbəsində aparılan araşdırmaların istiqamətinin müəyyənləşməsində böyük rolu olan Heydər Əliyevə həsr edilməsi təzadüfi deyil. Belə ki, Ulu öndərin milli-mənəvi dəyərlərimizin qorunub saxlanılmasına verdiyi misilsiz töhfələr, öz soy kökümüzə bağlılığımızı təmin etməsi, eyni zamanda, bunların ümumbəşəri dəyərlər sintezindən, inteqrasiyasından keçərək daha da inkişaf etdirilməsi sahəsində apardığı səmərəli işlər tədqiqatçı alimlər üçün də bir proqrama çevrilmişdir.

Heydər Əliyevin, xüsusilə, Azərbaycan müstəqillik əldə etdikdən sonra Azərbaycan dili, mədəniyyəti, adət-ənənələri, dini-mənəvi dəyərlərlə bağlı verdiyi bəyanatlar bir çox problemlərin yenidən işlənilməsinə ehtiyac doğurduğunu ortaya qoydu. Ulu öndərin bu istiqamətlərdə irəli sürdüyü vəzifələr xalqın təfəkküründə milli oyanış mərhələsinin başlanmasına təkan verdi, bu da öz növbəsində, hər bir tədqiqatçı qarşısında duran ali məqsədi müəyyənləşdirməyə kömək etdi.




Heydər Əliyevin dövlət işinin prioritetlərindən biri kimi türk ölkələri və xalqları ilə əməkdaşlığın vacibliyi mədəniyyət və incəsənət sahəsində bir çox əhəmiyyətli hadisələrin başlanğıcına təkan vermişdir. Xüsusilə, onun mədəniyyət siyasətində türk xalqlarının tarixinə, mədəniyyətinə böyük hörmətlə yanaşması, Azərbaycan musiqişünaslığında əsas məqsədi milli musiqi mədəniyyətinin türk köklərinin öyrənilməsi təşkil edən yeni istiqamətin - musiqi türkologiyasının yaranmasına səbəb olmuşdur.

Bütün bunları nəzərə alaraq "Müqayisəli sənətşünaslıq" toplusunun son buraxılışında təqdim olunan məqalələr bir neçə istiqamət üzrə tərtib edilmişdir. Bunlardan, ilk növbədə, "Heydər Əliyev - 100" bölməsində bilavasitə Ulu Öndərin Azərbaycan mədəniyyətinin inkişafındakı roluna həsr edilən məqalələr yer tutur: "Heydər Əliyev və mədəniyyət haqqında elm" (F.Məmmədov, F.Məmmədova),"Heydər Əliyev və türk mədəniyyətinin birliyi" (R.Məmmədova), "Heydər Əliyev Azərbaycan incəsənətinin hamisi kimi" (R.Məmmədova), "Heydər Əliyevin mədəniyyət konsepsiyasında "islam həmrəyliyi" ideyasının aktuallığına dair" (Ə.Babayeva), "Ulu Öndər Heydər Əliyev dühası Türk dünyası intellektuallarının fikir-ideya xəzinəsində" (Y.Əliyeva). "Heydər Əliyev və azərbaycançılıq məfkurəsi" (S.Kasimi), "Heydər Əliyev və milli-mənəvi dəyərlərimiz" (P.İbrahimova).

Heydər Əliyevin uzaqgörən və səmərəli siyasi-mədəni fəaliyyəti, Azərbaycanın mədəniyyətinin və incəsənətinin inkişafında misilsiz xidmətləri topluda təqdim olunan hər bir məqalədə qırmızı xətlə keçir. Onun mənəvi mədəniyyətə, mənəvi həmrəyliyə, xalqın ümummədəni yüksəlişinə, cəmiyyətin mədəni zənginləşməsinə hər zaman böyük diqqət ayırması Azərbaycan xalqının gələcək inkişafının və təhlükəsizliyinin təmin edilməsi üçün vacib amil kimi mühüm rol oynamışdır.

Ulu Öndərin mədəni quruculuq istiqmətində irəli sürdüyü qiymətli vəsiyyətləri bu gün Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilərək müasir dünyanın mədəni-siyasi çağırışlarına və milli maraqlara tam cavab verir. Bu müdrik şəxsiyyətin Azərbaycanın mədəniyyət strategiyası üçün irəli sürdüyü əsas müddəaları topludakı Heydər Əliyevə həsr olunan məqalələrin əsas qayəsini təşkil edir.

Topluda təqdim olunan digər məqalələr ənənəvi olaraq incəsənətin qarşılıqlı əlaqələri, musiqi

MUSİQİ DÜNYASI 2/99 2024

türkologiysı və müqayisəli sənətşünaslığın metodoloji problemləri ilə bağlıdır.

Bu gün Azərbaycan incəsənətinin milli spesifikasının dərk olunmasında metodoloji vektorlar çox vacibdir. İzahedici paradiqma mədəniyyətin tarixi və etnomədəni, tipoloji və funksional determinantlarına əsaslanmağı tələb edir. Buna müvafiq olaraq fənlərarası işləmələr fəallaşmış, müqayisəli təhlilin müəyyən anlayışları konkretləşdirilmişdir.

Bu baxımdan topluda yer alan "İncəsənətdə sistemlik prinsipi" (S.Qasımova) adlı məqaləsi diqqətəlayiqdir. Qeyd edildiyi kimi, müasir elm bir neçə bilik sahələrinin sintezi ilə rastlaşır. Sistemli-struktur yanaşma elmin ümumi metodologiya və məntiqinin əhəmiyyətli və eyni zamanda asılı komponentidir. Mədəniyyət mürəkkəb, qeyri-xətti, özü-özünədüzələn sistemlərə aid olaraq həm də mədəni mübadilənin fəal istirakçısıdır. Mədəniyyətlərin qarşılıqlı əlaqəsi bütövlükdə mədəni tarixi prosesin əsasıdır.

Qeyd etmək istərdik ki, aktuallığı humanitar elmin və Azərbaycan sənətşünaslığının müasir vəziyyəti və perspektivləri ilə müəyyənləşən bu toplu müasir sənətşünaslığın problemlərinə həsr edilmişdir. Artıq məlumdur ki, 1991-ci ildə yaradılan "İncəsənətin qarşılıqlı əlaqələri" şöbəsində müqayisəli sənətşünaslıq üzrə fəal tədqiqatlar aparılır.

Şöbədə əsas elmi istiqamət olan müqayisəli sənət-şünaslıq - Azərbaycan incəsənətinin həm milli özünəməxsusluğunun, həm də universal xüsusiyyətlərinin işıqlandırılmasına xidmət edir. Müqayisəli sənətşünaslıq - geniş elm sahəsidir. Bu istiqamət incəsənətin bütün növləri, həmçinin, onun tarixi və nəzəri tədqiqi arasında da bağlayıcı rolunu oynayır.

XX əsrin 90-cı illərindən başlayaraq "İncəsənətin qarşılıqlı əlaqələri" şöbəsində işlənən müqayisəli sənətşünaslıq sahəsində yeni istiqamətlərin meydana gəlməsi Azərbaycan musiqi elmində əlamətdar hadisə kimi qeyd oluna bilər. Bu sırada milli musiqişünaslıqda ilk dəfə olaraq etnologiya, musiqi türkologiyası kimi yeni prioritet istiqamətlərin durması, xüsusilə, diqqətəlayiqdir. Müasir mərhələdə Azərbaycan sənətşünaslığının ən aktual məsələlərindən biri milli mədəniyyətin soy kökünün öyrənilməsi problemidir. Ümumtürk köklərin dərindən araşdırılması Azərbaycan mədəniyyətinin milli özünəməxsusluğunun aşkarlanmasının bir aspekti kimi baxılaraq böyük əhəmiyyət kəsb edir. Türkdilli xalqların musiqi dilinin genezisi, qohumluq əlaqələri bu qrupa daxil olan xalqların musiqi materialı əsasında araşdırılaraq ümumi və fərqli cəhətlərin müəyyənləşdirilməsi yolunda vacib nəticələrin əldə edilməsinə imkan açır.

"Musiqi türkologiyası"nın məqsədi, həmçinin, ümumtürk musiqisinin semantik mənasını qoruyub saxlayanümumi qanunauyğunluqların rekonstruksiyası problemini müqayisəli təhlil yolu ilə öyrənməkdən ibarətdir. Bunun üçün həm ümumtürk musiqi sistemi strukturunun, onun intonasiya-tipoloji və janr əlaqələri aspektində tədqiqi, həm də aşkarlanmış intonasiya-tipoloji və janr əlaqələrin milli ənənələrlə korrelyasiyası vacibdir. Məhz belə tədqiqatlar vasitəsilə Azırbaycan musiqisinin milli spesifikasının daha da dərindən dərk edilməsi üçün geniş imkanların açılmasına nail olmaq mümkündür.

Bu baxımdan "Müqayisəli sənətşünaslıq" toplusunun X nömrəsində,öncəki buraxılışlarda olduğu kimi, "musiqi türkologiyası" istiqamətində əsas məsələlərin işıqlandırılması diqqəti cəlb edir. Xüsusilə, topluda təqdim olunan professor R.Məmmədovanın "Musiqi türkologiyası kontekstində lad sisteminin formulluğu məsələsi haqqında", sənətşünaslıq üzrə fəlsəfə doktoru F.Əlizadənin musiqidə variantlıq problemi ilə bağlı məqalələri maraq doğurur.

Topluda "İncəsənətin qarşılıqlı əlaqələri" rubrikasında təqdim olunan məqalələr incəsənətin növlərarası əlaqələrinin, həmçinin, etnoqrafiya və sənətşünaslığın qarşılıqlı əlaqəsindən irəli gələn problemlərin tədqiqində aparıcı yer tutur. Belə işlərin yerinə yetirilməsi öyrənilən mövzuların kreativliyini göstərir. Məsələn, "Azərbaycan incəsənətinin morfoloji sisteminin növlərindən biri kimi toxuculuğun öyrənilməsinə dair" (Ş.Quliyeva) məqaləsində ənənəvi incəsənət və xalq yaradıcılığının qarşılıqlı əlaqəsi probleminin tədqiqi etnosənətşünaslıq elmi istiqamətində aparılması ilə diqqətəlayiqdir.

Məlum olduğu kimi, etnosənətşünaslıq - etnoqrafiya və sənətşünaslıq elmlərinin qovuşuğunda duran elm kimi xalq sənətini hərtərəfli öyrənməyi nəzərdə tutur. Xalq yaradıcılığının tədqiqinin etnoqrafik istiqaməti bu elmin əsas məqsədinin müəyyənləşməsində aydın əksini tapır. Bu baxımdan belə işlərin yerinə yetirilməsi xalq incəsənətinin məzmun və formasının etnosun dünyası, onun təsəvvürləri, mifologiyası və virtual fəaliyyəti ilə əlaqəsinin öyrənilməsində ön planda durur. Topluda təqdim olunan bu məqalənin əsas məqsədi də elə incəsənətin tip və formalarının xalq yaradıcılığı ilə qarşılıqlı əlaqəsini, etnosun mənəvi və sosial həyatında yerini müəyyən etməkdən ibarətdir.

İncəsənətin qarşılıqlı əlaqələrinin mövzu vəaspektləri olduqca çoxcəhətlidir.Ona görə də topluda bu istiqamətdəA.Hüseynovanın, X.Quliyevanın, N.Həbibovanın təqdim etdiyi məqalələr aktuallığı ilə seçilirlər..

Müqayisəli sənətşünaslığın problemləri, ümumiyyətlə, geniş və dərindir. Ona görə də topluda düşünülmüş surətdə müqayisəli sənətşünaslığın aspektlərinin müxtəlifliyini əks etdirən materiallar təqdim olunmuşdur.Ümid edirik ki, toplu incəsənət və mədəniyyət problemləri ilə məşğul olan mütəxəssislər, həmçinin, geniş oxucu dairəsi üçün maraqlı ola bilər.